

*Vüqar İsgəndərov*

## “Milli ordumuza”

Hamı ucala bilmir,
Şəhidlik zirvəsinə.

Onlar ”Tanrı” tərəfdən
seçilmiş insandılar.

Hər zaman sinə gəlib
düşmənin həmləsinə,

Bu doğma ”Vətən” üçün
silaha sarıldılar...

***

Bizi qorxuda bilməz
haqsız tökülən bu qan,
”Ya Qarabağ, ya ölüm”
tək budur şüarımız.
Bəsdir biz səbr etdik
qalxıbdır ”Azərbaycan”,
Bölünməz ”Qarabağda” ucalsın
bayrağımız

***

Ali Baş Komandanın,
əmrini gözləyirik,
Səfərbər olub hamı,
biz yollanaq döyüşə.
Böyükdən uşagadək
Ana vətən naminə,
Xilaskar ordunuzun
yanındayıq həmişə.

***03.10.2020***

## “Məni itirməyə niyə tələsdin?”

Bu sevdan yarımçıq qalacaqdısa,
Gözlərin belə tez dolacaqdısa,
Seçdiyin naümid qoyacaqdısa,
Məni itirməyə niyə tələsdin?

***

Çətinlik qurtarıb yox olan zaman,
Qarşıda xoş günlər çox olan zaman,
Övladlar qəlb verib qəlb alan zaman,
Məni itirməyə niyə tələsdin?

***

Bu yaşda bir şeyi anmadın bəlkə,
Öz qabın məhv edir tünd olan sirkə.
Bütün çətinlikdən çıxardıq birgə,
Məni itirməyə niyə tələsdin?

***

Ailə ”müqəddəsdir” yamagı olmur,
Xəyanət yoluyla sınağı olmur,
Dağılır bu yolda qınağı olmur,
Məni itirməyə niyə tələsdin?

***

Hər yoldan bir ötən söylə əzdimi?
Kor olmuş gözlərin bunu gördümü?
Ötəri hislərə verib qəlbini
Məni itirməyə niyə tələsdin?

## “Aydanım”

Qədəmini nə tez atdın beşə sən,
Qədəmləri yüngül olan Aydanım,
Öz ardınca ”Həzrət Əli” gətirdin,
Ortancılım həm günəşim, həm ayım.

***

Türkanıma həm arxa sən, bacı sən,
Həzrət Əli qardaşının tacı sən.
Həm qızım sən, həm anam sən, bacı sən,
Qədəmləri yüngül olan Aydanım,
Ortancılım, həm günəşim, həm ayım.